

*Tural Cəfərli*

# VECSİZ

**(HEKAYƏ)**

Axşam yağış yağmağa başladı. Quşlar qanadlarını var gücü ilə işə salıb, təlaş içində naməlum istiqamətə uçuşdular. Həyətimizdəki armud ağacının altında böyrü üstə aşan velisopedim məndə belə bir təəssürat yaratdı ki, o bu halından məmnundu. Ona görə də onu öz halı ilə baş-başa buraxmağı doğru hesab etdim.

Mətbəxdə stolun arxasında dövrələmə oturub çay içirdik. Atamın çatma qaşları bir az da sıxlaşmışdı, elə bil alnını xışla şumlamışdılar, donqar başının kobudluğunu gizlətmək üçün sağ qulağının üstündən saçını sola doğru daramışdı. Mətbəxdə var-gəl edən anamın əyri ayaqları tez-tez atam oturan stula dəyirdi. Buna məndən başqa diqqət edən olmamışdı. Böyük qardaşım burnunu çəkə-çəkə qabağındakı çayı hörüldədirdi. Bu vaxt atam xırıltılı səslə:

-Nə görübsən o xarabada? ( kəndin ayağındakı "Arzu" kafesini nəzərdə tuturdu)

-Eee, domino oynuyuram da!!!- qardaşımın üzü bozardı.

-Getmə deyirəm o xarabaya, ora avaralar yığılır. Otur evdə, anana kömək elə! -gözücu anama baxıb, burnunu qurdaladı.

-Çayınızı için, soyumamış...- anam araya mehribanlıq gətirmək istəyirmiş kimi dilləndi.

Qardaşım keçən il əsgərlikdən qayıtmışdı. Ermənilərlə qabaq-qabağa, Ağdamda hərbi xidmət keçmişdi. Elə hey yanına gedəndə gah siqaret, gah da pul istəyirdi. Atam ailəmizi fəhləliklə saxlayırdı, anam da evdə toyuq-cücə saxlamaqla başını qatırdı. Yadımdadı bir dəfə qardaşım bərk xəstələnmişdi. Atamgil qardaşımın yanına-hospitala getmişdilər. Ciyərləri soyuqlamışdı, bir ay hospitalda yatmışdı. Elə sevinirdi ki, deyirdi canım bir müddətlik olsa da, bitdən, birədən qurtarıb. Onda anam çox qorxmuşdu, uşaq kimi ağlamaqdan gözləri şişib tuluğa dönmüşdü... O günlər getsin qayıtmasın...

İndi də düz bir ildi ki, qardaşım əsgərlikdən gəlib. Bütün gününü kafedə keçirir. Anam danışırdı ki, o vaxt qardaşım dünyaya gələndə atam sevindiyindən bilmirdi nə etsin, babamın adını ona elə ürəklə qoymuşdu ki... Fikrət babamın ruhu şad olsun deyə... Amma məncə babamın ruhu elə də şad deyildi. Çünki qardaşım vecsiz idi, evə bir köməyi dəymirdi, hazıra nazir olmaqdan başqa heç nə bacarmırdı... Mən də məktəbə getdiyim üçün hələlik ancaq dərslərimə fikir verirəm. Bu il altıncı sinifə keçdim. Tarixi çox sevirəm. Məktəbi qurtarıb, tarix fakültəsinə qəbul olunacam. Sonra kəndimizdə tarix müəllimi işləyib, atama kömək edəcəm. Hə, bir də atama avtomobil alacam. Onun ən böyük arzularından biri avtomobil sahibi olmaqdı. Özü də qonşumuz Dəmir dayının qara mersedesindən istəyir. Düzdü bir az bahalı avtomobildi, amma olsun, gücüm çatacaq onu almağa. Buna çox əminəm.

-Mən getdim. -amiranə şəkildə mızıldandı.

-Get, get. Sonra it peşmanı olacaqsan.-atam əsəbi şəkildə yumruğunu sıxdı.

-Ay bala, papağını qoy, çöldə yağış yağır. Anam qorxu içində qardaşıma tərəf yeridi.

Saat on biri qalır. Yağış kəsmək bilmir. Atamgilin otağının işığı hələ də yanır. Mən yerimdə uzanıb, "Səfəvilər" tarixini oxuyuram. Şah İsmayılın müdrik tarixi addımlarını gözümün qabağına gətirirəm. Özümü bir anlıq əsl hökmdar kimi təsəvvür edirəm. Elə bu vaxt çöl qapımızın səsinə diksinirəm. Gələn Fikrət idi. Deyəsən içmişdi. Rabitəsiz danışığı, mızıldanması, qırıq qırıq addımları onu daha da vecsiz göstərirdi. Anam mətbəxə keçdi. Tez çay qoydu. Atam işığı söndürüb yorğanı başına çəkdi. Yəqin bunu əsəbindən edirdi. Hələ üç gün bundan qabaq Fikrəti içki içdiyinə görə bərk tənbeh eləmişdi. Görünür heç bir xeyri olmamışdı...

- Totan, necəsən? ( o məni belə çağırır. Kefi yaxşı olanda. Əslində adım Tofiqdi.)

- Yaxşıyam. Həvəssiz halda cavab verirəm.

- Gəl keç içəri. Çay süzüm, təzə dəmli çay iç ay bala.- Anam yorğun səslə dilləndi.

Mən də mətbəxə keçib su içdim. Fikrət başını stola qoyub fısıldayırdı. Anam bu mənzərədən pərişan olub, ağlamsınırdı. Əllərini sinəsinə qoyub, çarəsiz baxışlarla Fikrəti süzürdü. Saat 12-ni göstərirdi. Anamın göz yaşları saniyə müddətində yanağından süzülüb qoynuna tökülürdü...

Bütün bunlar məni üzürdü. İçimdə qardaşıma qarşı nifrət oyanırdı. Axı o niyə anamı, atamı üzür? Niyə onları incidirdi? Axı atam, anam onu çox istəyirdi, əziyyətini çox çəkmişdilər... Bütün bu suallar mənə rahatlıq vermir, yuxuma zəhər qatırdı.

Səhər quşların xorla oxuduğu nəğmənin səsinə oyandım. Səfəvilər tarixi kitabını yerdən götürüb rəfdəki kitabların arasına qoydum. Həyətdən atamın səsi gəlirdi. Deyəsən Fikrətlə nə haqdasa danışırdılar. Bir müddət matdım-matdım onlara baxıb susdum. Atamın nə gözlərindən, nə də üzünün ifadəsindən heç nə oxuya bilmirdim. O bu dəqiqqələrdə naməlum baxışlarla ətrafına qəribəlik yayan özgə adama oxşayırdı. Qəfildən dodaqlarını gəmirə gəmirə uca səslə qışqırdı:

-Rədd ol burdan!!! Əli ilə qapını işarə edirdi.

Fikrət başını bulaya-bulaya çölə çıxdı. Səsə anam çıxb tövşəyə tövşəyə atamın donub qaldığı həyətə özünü çatdırdı. Yol üstü ayağı qapının tilinə də dəymişdi. Bir az axsamağından bunu bilmək olardı.

-Nolub a kişi? Niyə qışqırırsan?

-Bu mənim axırıma çıxacaq! Kimə oxşadı bu belə? İt oğlu it! Küçük! Atamın əlləri əsməyə başladı. O bilmədən özünü də söyürdü.

Birtəhər içəri keçib televizoru açdı. Qorxumdan tualetə gedə bilmirdim. İçimdə bir hiss baş qaldırmışdı ki, məni görsə atamın halı lap pisləşəcək. Ona görə də divanda oturub, dizlərimi qucaqladım. Beş-on dəqiqə belə qaldıqdan sonra özümə gəldim. Barmaqlarımın ucunda həyətə çıxdım. Tualetdə işimi tez görüb, hamam otağına keçdim. Güzgüdə rəngimin ağardığını gördüm. Elə bil sol gözümün qarası böyümüşdü bir az. Artıq bayaq olanları unutmaq iqtidarında idim. Nəhayət atam məni çağırdı:

-Tofiq hardasan, tez bura gəl!

Yeyin yeriyib düz atamın qabağında dayandım.

-Sabahın xeyir oğlum. Necəsən? Atamın səsi yumşalmışdı.

-Yaxşıyam ata, sən necəsən? Titrək səslə dilləndim.

Heç nə dəmədən məni qucaqladı. Əli ilə saçlarımı qarışdırıb dərindən ah çəkdi. Mən sakitcə durmuşdum. Bircə burnunumu qaşınmaq tutmuşdu. Sükunət halımı pozmamağa çalışırdım. Sonra anam süfrəyə səliqəli şəkildə pendir, yağ, çörək, çay gətirdi. Sakitcə otutub bir-birimizə baxırdıq. Mən hərdən çayı hörüldədib, pendirdən bir dilim çörəyin arasına qoyub yeyirdim. Atam quruyub qalmışdı. Baxışlarında bir ümidsizlik, bir təəssüf var idi. Sonra anam sükutu pozdu:

-Günortaya nə bişirim? Bir gözü atamda idi.

- Xəngəl!- sevincək şəkildə dilləndim.

Atamın üzünə təbəssüm qondu. Görünür bu təklifimdən o da məmnun olmuşdu. Mehribanlıqla məni süzüb əlini boynunun dalına apardı...

Anam daha cavab gözləmədən razılıq əlaməti olaraq başını tərpətdi. Amma həm də hiss olunurdu ki, səhər baş verən qanqaraçılığa görə narahat idi. Fikri qardaşımın yanında qalmışdı. Çaşqın baxışları bunu deməyə əsas verirdi. "Çox uzağa getməz, yəqin ya kafeyə, ya da iki küçə aralıdakı dördyolda durub vecsiz görkəm alıb..." - deyə düşünməyə başladım.

Gün boyu Fikrətdən bir xəbər gəlmədi. Nədənsə heç anam da onunla maraqlanmadı. Bəlkə də içində bir arxayınlıq var idi. Dünəndən yağışın altında qalan velisopedimin yan güzgüsünü silmək üçün dəsmal axtarırdım. Qapının arxasındakı məhrəbanı götürüb armud ağacının altında oturdum. Velisopedin yan güzgüsün silib, saralmış dişlərimə baxırdım. Özümü bir anda tərkedilmiş, kimsəsiz, unudulmuş biri kimi hiss etdim. Bu hiss hardan gəlib məni yaxaladı bilmirəm. Tez də bu hissdən canımı qurtara bildim. Velisopedimə minib küçəyə tərəf çıxdım. Az qala qəyə düşəkdim. Velisopedin təkərləri yaş oduğu üçün sürüşürdü. Mən çoxdan idi velisoped sürürdüm, amma tez-tez müvazinətimi itirib yıxılırdım. Ona görə də maksimum dərəcədə ehtiyatlı və diqqətli olmağa çalışırdım. Köhnə məktəbin yanına çatırdım ki, uzaqdan Fikrəti gördüm. Damağında siqaret tay tuşları ilə deyib gülürdü. Onlara yaxınlaşanda məni vecsiz nəzərlərlə süzdü. Mən də heç nə deməyib yanlarından keçib getdim. Beləcə həmin gün birlikdə nahar eyləyəsi olmadıq. Nahar bir yana qalsın, günümüz göy əskiyə dönmüşdü. Qanımız qaralmışdı. Fikrətin vecsizliyi isə öz sürətilə davam etməkdə idi. Özü də bu vecsizlik o biri vecsizliklərə oxşamırdı. İnadkar, təkəbbürlü, səfeh bir vecsizlik idi... Adi vecsizliklərə nə var, buna dözmək olmurdu. Amma sənin qanı qanından, canı canlından olan qardaşından söhbət gedirsə, bütün bunlarla barışmaqdan başqa hansı yolumuz var idi ki...

Mənim məktəbdə şeir yazmağımdan xəbər tutulan gün ilə "balaca şair" təxəllüsünə yiyələnməyim bir olmuşdu. Orda-burda şeir deməkdən xoşum gəlməsəm də, etiraz da edə bilmirdim. Axır vaxtlar bir az da özümü vacib adam hesab etməyə başlamışdım. Düzü bizim kənd şeir meir hərləyən kənd deyildi, bizdə daha çox alver, ruset dəbdə idi. Bir dəfə qonşumuz Süleyman məni görüb məzəli şəkildə demişdi:

A balaca şair bir şeirlərindən də görüm? Əlini cibinə salıb şax beşliyi mənə tərəf uzatmışdı. Mən isə öz növbəmdə "yazdıqlarım yadımda qalmır" deyib yaxamı qurtarmağa çalışmışdım. Amma o beşlik məni fikrimdən daşındıra bilmişdi:

**Mənim atam zəhməti,**
**Əziyyəti çox görüb.**
**Neçə küçələr çəkib,**
**Neçə evləri hörüb.**

**Yorulmadan çalışır,**
**Halal çörəyimiz var.**
**Bizim elə-obaya**
**Az-çox köməyimiz var.**

Süleymanı gic gülmək tutmuşdu. Deyəsən kefi açılmışdı. Ondan sonra o kişidən zəhləm getdi. Məni elə saldığını düşünürdüm. Aldığım o beş manatı da elə yoldaca cırıb tullamışdım.

Evə çatanda qapımızn ağzında bir topa adam gördüm. Adamların arasından birtəhər sivrilib özümü içəri atdım. Atamın başınnı üstünü kəsən ağ paltarlı qadınların üzücü baxışlarından diksinən kimi oldum. Anam saçları dağınıq halda divanda kirmişcə oturmuşdu. Bəsdi xala onu ovundurmağa çalışırdı. Atamın ürəyi partlamışdı. Kişilərin söhbətinə qulaq verəndə bunu bildim. Yazıq kişi televizora baxdığı yerdə keçinibmiş. Qardaşım Fikrət uzaqda durub özlüyündə "qəm dəryasına" batmışdı. Hərəkətləri anlaşılmaz təsvir yaradırdı. Atamın üzündə bir solğunluq var idi. Rəngi kağız kimi ağarmışdı. Sonra mağar gətirən maşının səsinə ayıldım. Mağarın hissələri dəmirdən olduğu üçün birbirənə dəyib, qıcıqlandırıcı bir səs çıxarırdı.

Atam ölən günü qar yağdı. Anamın saçları atamın qırxı çıxana qədər ağardı. Fikrət axır vaxtlar kafedən evə yığılırdı. Qəbiristanlıqda qara mərmərdən boylanan atamın narahat dolu baxışlarının təsiri ilə doyunca ağladım. Sonra velisopedimə minib evə getdim.

Səhər gün çıxmışdı. Quşlar yenə xorla nəğmələrini oxumağa davam edirdi... Fikrətin xorultusu bu nəğmənin gözəlliyinə kölgə sala bilmirdi.

***